**G.Ə.HÜSEYNOVA**
*e-mail: gulkharhusseynova@mail.ru*
**:https://orcid.org/0009-0002-6089-9380**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.2.308**

# ALİ MƏKTƏBLƏRDƏ ALMAN DİLİNİN TƏDRİSİNDƏ KOMMUNİKATİV FƏALİYYƏTLƏRDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

***Xülasə.*** *Məqalədə alman dilinin tədrisində kommunikativ fəaliyyətlərdən istifadənin əhəmiyyəti ön plana çəkilir. Müxtəlif kommunikativ fəaliyyət növlərinin adları qeyd edilir. Bu fəaliyyətlərin tədrisdəki mühüm rolu haqqındakı məsələlərə toxunulur. Belə ki, adını qeyd etdiyimiz fəaliyyətlər tədrisin səmərəliliyini artırır, əməkdaşlığı gücləndirir, interaksiyanın davamlılığını dəstəkləyir.*
*Bundan əlavə, motivasiyanın yüksəldilməsinə səbəb olur. Belə olduqda fəallıq artır, tədris maraqlı və rəngarəng xarakter alır.*

***Açar sözlər:*** *dil, fəaliyyət, məlumat, ünsiyyət, nitq*

Məlumdur ki, alman dilinin tədrisində kommunikativ fəaliyyətlərin rolu danılmaz olaraq qalır. Bu zaman şifahi nitqin inkişafı dəstəklənir, interaksiya yüksələn xətt üzrə davam edir.

Xüsusilə, son dövrlər İKT-nin bütün sahələrə inteqrasiyası kommunikativ fəaliyyətlərin müxtəlif növlərindən istifadəni əlçatan etmişdir.

Onu da xüsusi olaraq, qeyd etmək lazımdır ki, Kommunikativ Dil Təliminin fəal şəkildə istifadə edildiyi auditoriyalarda adını qeyd etdiyimiz fəaliyyətlərin yeri inkar edilməzdir.

Onlardan bəzilərini aşağıda təqdim edirik.

- rollu oyunlar silsiləsi;
- müsahibələr;
- qrup işi;
- informasiya mübadiləsi;
- fikir mübadiləsi;
- scavenger hunt [4].

Ümumilikdə, yuxarıda da qeyd etdiyimiz kimi, kommunikativ fəaliyyətlərin rolu danılmazdır. Burada vacib məqamlardan biri odur ki, bu cür fəaliyyətlər situasiyada və ya kontekstdə təqdim olunmalı, kommunikativ məqsədləri olmalıdır.

Tipik olaraq, bu fəaliyyətlərə aşağıdakılar aiddir:

- problem həllinə yönəldilmiş tapşırıqlar;
- rollu oyunlar və s.

Bu zaman, həmçinin informasiya mübadiləsi, seçimlər, fidbək olmalıdır.

Yeri gəlmişkən, qeyd edək ki, metodoloji ədəbiyyatlarda dörd fundamental ünsiyyət fəaliyyətinin tipləri qeyd edilir.

Onları təqdim edirik:

1. Verbal
2. Qeyri-verbal
3. Yazılı
4. Vizual

Verbal kommunikasiya fikir mübadiləsi olub, gündəlik həyatımızda vacib faktorlardan sayılır [5].

Qeyri-verbal ünsiyyətə isə ton, melodiya, bədən dili kimi elementlər daxildir.

Yazılı kommunikasiya isə özündə ideya və məlumatların yazılı nitq vasitəsilə həyata keçirilməsini ehtiva etməkdədir.

Buraya isə bunlar daxildir:

– mətn ismarıcları,
– sosial media postları,
– məruzələr,
– memorandumlar və s.

Vizual ünsiyyətə gəlincə, buraya aşağıdakıları aid etmək olar:

– imic,
– simvol,
– qrafiklər və s.

Bunlar da ismarıcların ötürülməsini nəzərdə tutur.

Bunlardan adətən aşağıdakı hallarda istifadə olunur:

– marketinq,
– dizayn,
– data təqdimatı.

Kommunikativ fəaliyyətlərin ən başlıca faydalarından biri də autentik öyrənmənin reallaşdırılmasıdır. Bu fəaliyyətlərin ən maraqlı tərəfi ondadır ki, onlar danışıq kimi çətin və məsuliyyətli bacarığı sınaqdan çıxarmaqda yardımçı olurlar.

Bundan əlavə, onlar təhsilalanlara bacarıqlarını nümayiş etdirmək imkanları yaradırlar. Bu zaman onlar real dünyanın geniş kontekstdə interaksiyalarında olduğu kimi, əvvəlcədən hazırlaşdırılmamış nitq, spontan danışıq qabiliyyəti əldə edirlər.

Məlumdur ki, tipik olaraq, gündəlik həyatımızda bir çox situasiyalarla rastlaşırıq. Bu zaman əksər hallarda əvvəlcədən hazırlaşmadığımız nitq nümayiş etdiririk. Bu da təhsilalanlara spontan şəkildə nitqlərini sınaqdan çıxarmaq imkanları təqdim edir.

Eyni zamanda avtomatik olaraq, onları kommunikasiyaya girməyə məcbur edir.

Kommunikativ fəaliyyətlərin məqsədi dilöyrənənləri eyni zamanda özünə inam nümayiş etdirərək, ucadan danışmağa həvəsləndirməkdir. Belə olan halda səhvlərin baş verməsi, kəmiyyəti, səbəbləri haqqında deyil, sırf şəkildə kommunikasiyanın alınmasını izləmək haqqında düşünmək lazımdır. Bu zaman təhsilverənləri səhvin baş verməsi məsələsi deyil, konkret olaraq, reallaşdırılmış kommunikasiya maraqlandırmalıdır. Daha sonra isə səhvlər üzərində düşünmək və mərhələli şəkildə aradan qaldırmaq olar.

Beləliklə, bu cür ünsiyyət prosesi dilöyrənənləri alman dilində danışmağa sövq edir, interaksiyanın, əməkdaşlığın səviyyəsini yüksəldir.

Ümumiyyətlə, xarici dillərin tədrisində bir çox kommunikativ fəaliyyət növlərinin adlarını qeyd etmək olar ki, onlar da bilavasitə uğurlu və mədəni ünsiyyətin gerçəkləşdirilməsinə yardım edirlər.

Onlardan bəzilərini təqdim edirik.

Məsələn, *hər şəkil bir hekayə danışır* adlı kommunikativ fəaliyyət növü məhz bu baxımdan maraq kəsb edir. Burada təhsilalanlar şəklə öz baxış bucağından baxaraq, müxtəlif fikirlər formalaşdıraraq, onları daha sonra öz yoldaşları ilə bölüşə bilərlər. Bu zaman onlar arasında əməkdaşlıq yüksəlir, interaksiya reallaşdırılır.

*Mən telefonla danışıram* adlı fəaliyyət növü də öyrənmədə faydalılıq baxımından diqqət çəkir.

Onu da xüsusilə vurğulamaq lazımdır ki, telefon simulyasiyaları faydalı və autentik təcrübə baxımından dilöyrənənlər üçün əla fürsətlər təklif edir. Belə ki, telefon zəngləri bu cür söhbətlərə qoşulmaqda asan və əlçatanlığı ilə seçilir. Bu zaman əsas məsələ söhbətin məcrası-

na düşməkdir. Bu halda danışığın məzmunu hər iki tərəf üçün aydın və anlaşıqlı olmalıdır. Belə olduqda söhbət hər iki tərəf üçün maraqlı və effektiv olur.

Bu münasibətlə metodist F.Kərimov öz kitabında diqqəti kommunikativ fəaliyyətlərin üzərinə çəkərək hər dəfə eyni metod və üsulla, iş forması ilə işləməyin yaxşı nəticə vermədiyini qeyd edir.

Bundan əlavə, metodist qeyd edir ki, hər dəfə eyni iş forması seçdikdə bu zaman dilöyrənənlərin dərsə, fənnə, keçirilən tədbirlərə, kommunikativ fəaliyyətlərə maraqları nəzərəçarpacaq dərəcədə azalır. Ona görə də bu işlərin təşkilində və aparılmasında müxtəlif və maraqlı, rəngarəng metod və iş formalarından istifadə etmək məqsədəuyğundur. Belə ki, üsulların qarşıya qoyulan məqsədə uyğun olaraq seçilməsi, onların şifahi nitq bacarıqlarının formalaşdırılmasına istiqamətləndirilməsi sözügedən işlərin təşkilində mühüm əhəmiyyətə malikdir [1, s. 45].

Məhz bu baxımdan məsələyə yanaşdıqda aydın olur ki, kommunikativ fəaliyyətlərin müxtəlif növlərinin həyata keçirilməsi təkcə ünsiyyətin gerçəkləşdirilməsi ilə qalmır, eyni zamanda aşağıdakıları özündə ehtiva edir:

- dostluq,
- əməkdaşlıq,
- interaktivlik,
- sosiallaşma,
- fəallıq,
- diskursiv bilik və s.

Bütün bunlar bu kimi əsas keyfiyyətlərin formalaşdırılmasında mühüm vasitə kimi çıxış edir.

Bundan əlavə, kommunikativ fəaliyyətlər içərisində problem əsaslı öyrənmə layihələri tələbələrə ideyalar üzərində düşünmək, fikir irəli sürmək, öz gələcək planlarını təklif etmək imkanları təqdim edir. Bu zaman onlar müstəqil şəkildə işləyərək, konseptuallaşdırmaq, dizayn etmək, öz innovativ axtarışlarını qrup yoldaşları, qrup üzvləri qarşısında nümayiş etdirmək arzusunda olurlar [3, s. 45].

Hesab edirik ki, bu cür situasiyalarda aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

Onları təqdim edirik.

- sinif oyunları təşkil etmək;
- tələbələrə seçimlər təklif etmək;
- müasir texnologiyalardan istifadə etmək;
- dərsləri maksimum interaktiv etməyə çalışmaq;
- materialları real həyati situasiyalara uyğunlaşdırmaq [6].

Alman dilində kommunkativ fəaliyyətlərin təşkili və aparılması məsələlərindən bəhs edərkən ilk diqqət çəkən məsələlərdən ən əsası kommunikativ səriştənin formalaşdırılmasına yönəldilmiş kommunikativ yönümlü çalışmalar sistemindən istifadənin nəzərdə tutulmasıdır.

Metodist Ə.Səfiyev yazır: “Onu da nəzərə almaq lazımdır ki, dil və nitq strukturlarının və onların ifadə vasitələrinin heç də həmişə üst-üstə düşməməsi faktı əlavə linqvistik və metodiki çətinliklərin yaranmasına səbəb olur.

Tədris edilən xarici dilin leksik və qrammatik quruluşunda linqvistik ünsiyyət prosesində istifadə edilməsi prizmasından yanaşan tədqiqatçılar xarici dildə monoloji nitqin aşılanmasına dair məqsədyönlü, xüsusi iş aparmağın zəruriliyini qeyd edirlər” [2, s.99].

Çünki müasir zamanda orta və ali məktəblər qarşısında duran ən vacib məsələ ünsiyyətə maksimum nail olmaqdır. Bunun üçün də kommunikasiyanın gerçəkləşdirilməsinə xidmət edən çalışmalar kompleksindən alman dilinin tədrisi prosesində istifadə etmək xüsusi əhəmiyyətə malikdir.

Bu cür fəaliyyətlər dilöyrənənləri özünüinkişaf yoluna salır, onlara təlimdən və sosial mühitdən qazandığı bilikləri öyrəndiyi və öyrənəcəyi biliklərlə əlaqələndirməyə, birləşdirmə-

yə, əsaslandırmağa və yeni, yüksək səviyyədə bilik qazanmağa şərait yaradır, bu sahədə lazımi imkanlar təqdim edir.

Dünyada hər bir kəsin yaradıcı olması, öz bacarığı fonunda yeni fikir və ideyalar irəli sürüb, onu həyatda tətbiq etməsi vacib, dəyərli bacarıqlardandır.

Bu mənada təlimin müxtəlif məqsədləri vardır ki, onlardan əsas olanları təqdim edirik:

1) dilöyrənənlərin əxlaq və davranışlarını diqqətdə saxlamaq;
2) özünü inkişaf etdirərək bilik qazanmaq.

Bu yol qazanılmış bilikdən, vərdişdən keçərək, yeni əldə edilmiş biliyə istiqamətlənir.

Beləliklə, buradan aydın olur ki, təlim fəaliyyətinin strukturu dərs zamanı müəllim tərəfindən dilöyrənənlər üçün seçilən fərdi və yaxud kooperativ təlim fəaliyyəti anlamı daşıyır.

Komandalara bölünmüş dilöyrənənlər təlim fəaliyyətlərini cütlükdə və komandada aşağıdakı formalarda həyata keçirirlər:

– müzakirə,
– dəyirmi masa,
– beyin hücumu,
– rollu oyunlar,
– açın, tapın,
– səhvi tapın,
– telefon və s.

Bunları təhsilverənlər nəzərdə tutulmuş müxtəlif strukturlarda aparırlar.

Beləliklə, kommunikativ fəaliyyətlərin real məqsədləri olur. Bu məqsədlərə aşağıdakılar daxildir:

1. Məlumatın tapılması;
2. Maneələrin aradan qaldırılması;
3. Özün haqqında danışmaq;
4. Mədəniyyətlər haqqında məlumat əldə etmək, öyrənmək.

Burada həm fikir bildirməli, həm də başqalarını dinləməyi bacarmalısan. Belə ki, fikir və ideyaların bölüşdürülməsində iştirak etmək, dinləmə, danışma bacarıqları nümayiş etdirmək lazımdır.

Burada digər maraqlı məqam kommunikativ tapşırıqların yerinə yetirilməsi prosesidir. Bu zaman verbal və qeyri-verbal fəaliyyətlərdən istifadə etmək zərurəti meydana çıxır.

Deməli, spesifik kommunikativ situasiyalarda spesifik məqsədlərə çatmaq üçün məhz bu davranış strategiyalarından istifadə etmək lazımdır.

Hər bir fəaliyyətin quruluşu təhsilalanlarda bir neçə sosial bacarıq və vərdişlərin yaradılmasına bilavasitə vəsilə olur. Bu təlim zamanı iştirakçı olan hər bir dilöyrənən məntiqi üsulla bilik qazanmaqla, həm də tərbiyəvi cəhətdən sosial mühitə uyğun olaraq, özünü aparmaq vərdişinə yiyələnir.

Hazırda elmi-texniki tərəqqidə inkişaf təbii olaraq, tədrisdə texniki vasitələrin tətbiqi ilə bağlı ciddi zərurət və geniş imkan yaratmışdır.Bu da sözügedən fəaliyyətlərin daha da maraqlı olmasına bilavasitə təsirlə səciyyələnir.

Beləliklə, bu cür kommunikativ fəaliyyətlərin tətbiqi və mütəmadi istifadəsi tələbələri psixoloji gərginlikdən uzaqlaşdırır, canlı ünsiyyət prosesində onları daha da fəal edir.

Məhz bu aspektdən yanaşdıqda dilöyrənənlərdə müstəqillik, öz fikirlərini sərbəst şəkildə söyləmək və başqalarını dinləyə bilmək bacarıqları inkişaf edir.

Bunun üçün müxtəlif kommunikativyönümlü çalışma növlərinin istifadəsi vacib və əsas şərt olaraq dəyərləndirilməlidir.

Onlardan bəzilərini diqqətə çatdıraq:

1. Tələbələri iki komandaya bölərək hər iki komandaya eyni vaxtda verilmiş aforizmləri təqdim edin.

Verilmiş aforizmlərin müasir dövrlə nə dərəcədə səsləşməsinə diqqət edin. Bu barədə danışın və hekayə düşünün.

2. Təhsilalanların adlarını kiçik kartlarda qeyd edin və stolun ortasına düzün.

– kartda adları qeyd olunan tələbəni xasiyyət baxımından təsvir edin və qiymətləndirin;

– vaxt tamam olduqdan sonra təhlil etdiyiniz şəxs barəsində əldə etdiyiniz məlumatları özünə təqdim edin;

– sizin haqqınızdakı oxuduğunuz məlumatları təsdiq və ya inkar edin.

3. Kiçik hekayədəki cümlələri ayrı-ayrı hissələrə bölərək, zərflərə yerləşdirin.

Qrupdakı dilöyrənənləri say baxımından iki komandaya bölərək, hər iki komandaya eyni zamanda zərfləri təqdim edin. Cümlələri çevik və ardıcıl olaraq sistemləşdirən komanda qalib hesab edilir.

4. Verilmiş hekayəni tamamlayın.

5. Qeyd edilmiş frazaya münasibət bildirin.

Bunlardan əlavə, digər fəaliyyət formalarına da diqqət yetirək.

Dilöyrənənlərə cütlərlə iş tapşırılır.

a) Hekayə yazma

Təhsilalanlara şəkilli hekayə hissələri təqdim edilir. Belə ki, onlar bütöv hekayəni bərpa etməlidirlər. Qrupun hər bir üzvü müxtəlif hissələri gördüklərindən bunu etmək onlara o qədər də çətin görünmür.

Bu texnikada prosedur aşağıdakı ardıcıllıqla aparılır:

I mərhələ

Dörd böyük qrup olmalıdır: A, B, C, D.

II mərhələ

Hər qrupa şəkillərdən bir hissəsi təqdim edilir.

III mərhələ

2 dəqiqə sonra qrup şəkilləri müəllimə verir.

IV mərhələ

Müəllim bu mərhələdə əvvəlki qruplardan bir nəfər seçib yeni qrup təşkil edir.

Məsələn, A-dan 1 nəfər, B-dən 1 tələbə, D-dən 1 tələbə.

V mərhələ

Dilöyrənənlər yeni qruplarda cəhdlər etməli, hekayə yaratmalıdırlar. Eyni zamanda şəkildə nümayiş olunanları müzakirə etməlidirlər.

VI mərhələ

Müəllim müxtəlif qruplarda hekayə danışır. Əksər hallarda hekayədə birdən çox variantlar mövcud olur.

Sonda müəllim qruplara bütün şəkilləri nümayiş etdirir.

b) şeir yazmaq

Şifahi nitqin inkişaf etdirilməsi ilə bağlı kommunikativ fəaliyyətlər sırasında şeir yazmaq da yer tutur. Onlara pərakəndə formada şeir parçaları təqdim edilir. Bu fəaliyyətə isə aşağıdakılar daxildir:

– oxu

– dinləmə

– müzakirələr

I mərhələ

Dilöyrənənlər qruplara bölünür.

II mərhələ

Qrupda hər bir dilöyrənənə kart paylanır.

III mərhələ

Qruplara şeirin hər hansı bir misrasını oxumaq haqqında məlumat verilir.

IV mərhələ

Qruplara şeirə başlıq düşünmək tapşırılır.

Növbəti bənd problem həlli ilə bilavasitə əlaqədardır.

"Problem həlletmə" adlı kommunikativ fəaliyyət növü problemin həllini tapmaq istiqamətinə yönəldilir.

Onu da vurğulamaq yerinə düşərdi ki, kommunikativ fəaliyyətlər içərisində ən çox populyar olanlardan biri də "Çək və təsvir et" fəaliyyəti hesab edilir. Bu zaman təhsilalanlardan biri öz tərəfdaşına şəkil çəkib göstərərək, ondan müəyyən suallar soruşmağa başlayır.

Sözügedən fəaliyyət növü təhsilalanların kommunikativ bacarıqlarının inkişaf etdirilməsini dəstəkləməklə yanaşı, onların danışıq və dinləmə qabiliyyətlərinin inkişafına yardım edir.

Buradan aydın olur ki, bu cür fəaliyyətlər Kommunikativ Dil Təlimi məsələləri baxımından yüksək əhəmiyyət kəsb etməkdədir.

Görünən odur ki, müasir dərsin əsas keyfiyyətlərindən biri dilöyrənənlərin fəallığı hesab edilir ki, buna da kommunikativ fəaliyyətlərdən istifadə etməklə nail olmaq mümkündür. Bu metodlar fonunda iş formaları müəyyən edilir ki, buraya fərdi, cütlərə, böyük və kiçik qruplarla iş daxil edilir və bunlar təlim-tədris baxımından əlverişli hesab edilir.

Təhsilalanlar ünsiyyət zamanı özünü və digərlərini daha yaxşı anladığına görə istər qrup, istərsə də cütlərlə işdə fəallıq, dilöyrənənlərin fəaliyyətində bir-biri ilə əməkdaşlıq, yaradıcılıq, qarşılıqlı münasibətlər formalaşmağa başlayır.

Müəllim dərsin formasında seçimlər edərkən dilöyrənənlərin marağını nəzərdə saxlamalıdır.

Dərsdənkənar mühitdə mövcud informasiya vasitələrindən fəal istifadə edən dilöyrənənlər dərsdə onlar üçün maraqlı olanları görmək istəyir. Bunun üçün müəllimin İKT-dən yüksək istifadə bacarığı olmalıdır.

Eyni zamanda bu texniki təminatı lazımi materiallarla zənginləşdirməyi bacarmalıdır.

Mövzuya uyğun olan mənbələri təhsilverənlər elə seçməlidirlər ki, bu resursların da rəngarəngliyi dərsin maraqlı və fəal keçirilməsinə, qarşıya qoyulan məqsədə nail olmağa geniş imkanlar yaratsın. Belə dərslərdə, həmçinin digər texniki təminatların olması da dərs prosesinin səmərəliliyini bilavasitə artırır.

***İşin elmi nəticəsi.*** Şifahi nitqin inkişaf etdirilməsi istiqamətində təhsilverənlər və onların seçdikləri materiallar, kommunikativ fəaliyyətlərin xüsusiyyətləri, səmərəliliyi mühüm əhəmiyyətə malikdir. Burada ən səmərəli hesab edilən yollardan biri alman dilində danışanları məqsədyönlü şəkildə dinləmək və maraqlı söhbətlərə qoşulmağa həvəsli olmaqdır. Əgər dilöyrənənlər çox ünsiyyətə qoşulursa bir o qədər də şifahi nitq və dinləyib-anlama qabiliyyətləri tez formalaşar.

***İşin elmi yeniliyi.*** Sözügedən məqalədə kommunikativ fəaliyyətlərlə bağlı indiyə qədər araşdırılan məsələlər təhlil edilir, əldə edilən nəticə və təkliflər konkretləşdirilir, xülasələşdirilərək təqdim edilir.

***İşin tətbiqi əhəmiyyəti.*** Araşdırılan mövzu həm orta, həm də ali məktəb kontekstində alman dilinin tədrisində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsi istiqamətində vacib əhəmiyyət kəsb etməklə yanaşı, eyni zamanda əməkdaşlığın, interaksiyanın maksimum təmin edilməsi baxımından faydalı hesab olunur.

**Ədəbiyyat**


*Azərbaycan dilində*

1. Kərimov, F. Şifahi nitqin inkişafı yolları / F.Kərimov, – Bakı: BSU nəşr., – 2002, – 139s.
2. Səfiyev, Ə. İngilis monoloji nitqinin kommunikativ tədrisinin əsasları / Ə.Səfiyev, – Bakı: Elm, – 2019, – 176 s.

*Alman dilində*

3. Anderson, J. Kognitive Psychologie. Eine Einführung / J.Anderson, – Heidelberg: Francke, – 1989, – 118 s.

*İnternet resursları*

4. https://.wikipedia.org
5. https://colinjames method.com
6. https:// www.thought co.com

**G.A.Huseynova**

**The Importance of usage of the Communicative Activities in German Language Teaching at High Schools**

***Summary***

In this article great attention was given to the importance of usage of the communicative activities in German language. There is noted different communicative activity types in this research. Also, here are touched to the different important roles of these activities in teaching processing.

So, these above mentioned activities increase the quality of process of the lessons, empower collaboration and interaction. Also, help to increase motivational sphere of learners.

At that time, the activeness of the students increases in these lessons, teaching process gets an interesting and colourful character.

***Key words:*** *language, activity, information, communication, speech*

**Г.А.Гусейнова**

**Важность использования коммуникативной деятельности в обучении немецкому языку в вузах**

***Резюме***

В статье подчеркивается важность использования коммуникативной деятельности при обучении немецкому языку. Упоминаются названия разных видов коммуникативной деятельности. Рассматривается важная роль этих мероприятий в образовании.

Таким образом, упомянутые мероприятия повышают эффективность обучения, укрепляют сотрудничество, поддерживают непрерывность взаимодействия.

Кроме того, это приводит к повышению мотивации. В этом случае повышается активность, обучение становится интересным и красочным.

***Ключевые слова:*** *язык, деятельность, информация, коммуникация, речь*

*Rəyçi: fil. f.d. N.M.Əliyeva*

*Redaksiyaya daxil olub: 07.04.2025*